# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ (1918-1920-ci illər) ƏCZAÇILIQ XİDMƏTİNİN VƏZİYYƏTİ HAQQINDA

**Hafiz M. Əliyev, Rafail V. Sadıqov**

Azərbaycan Xalq Cümhuriyyəti dövründə bütün sahələrdə olduğu kimi, eczaçılığa da xüsusi diqqət yetirilirilərək, hökümətin fəaliyyəti önəmli, əvəzedilməz, tarixi bir fakt olaraq, Azərbaycan eczaçılıq salnaməsinə daxil olmuşdur [1].

Fərdi eczaçılıq xidməti, hələ çar Rusiyası dövründə Azərbaycan ərazisində müxtəlif apteklər və aptek mağazaları şəklində xaotik fəaliyyət göstərirdi. Bakı və Gəncə quberniyalarında olan apteklər və aptek mağazaları müvafiq surətdə quberniya həkiminin idarələrinə tabe olmuşdu [2].

Azərbaycan Xalq Cümhuriyyəti Səhiyyə Nazirliyinin ilk sərəncamlarından birinə əsasən, ölkənin ərazisində yerləşən bütün apteklər və aptek mağazaları öz fəaliyyəti, ştatı və digər məsələləri üzrə hesabatlarını birbaşa nazirliyin Tibbi-Əczaçılıq Şöbəsinə təqdim etməli idilər. Bununla da eczaçılıq xidmətinin vahid sistem – *aptek şəbəkəsi* şəklində birləşdirməyə nail olmuşdu [1].

Həmin dövrdə, şəxsi, özəl, müxtəlif cəmiyyətlərin tabeliyində olan apteklərin və aptek mağazalarının artması ilə əlaqədar, ölkənin paytaxtında «Aptekçilərin cəmiyyəti» (*Общество Аптекарей г. Баку и его района*)*, və bu qurumlarda çalışan eczaçıların «Həmkarlar İttifaqı» (*Профессиональный Союз фармацевтов и служащих аптек г. Баку*) fəaliyyət göstərirdi [1].

«Aptekçilərin Cəmiyyəti»nin sədri provizor **Ferdinand Miron Abramoviç**, katibi – **İ. Qluzman**, «Həmkarlar İttifaqı»nın sədri isə **A. Trubkoviç** idi.

Qeyd olunduğu kimi, hökümətin ilk sərəncamlarından, hələ 8 oktyabr 1918-ji ildə 283 №-li «Bakı şəhərində dövlət apteki və eczaçılıq kursları açılması haqqında» qərarı qəbul edilmişdi [2].

Önəmlisi budur ki, bəzi apteklərdə rəhbərliyi provizor olmadığı təqdirdə, Tibbi-Əczaçılıq Şöbəsi ciddi xəbərdarlıq edərək, müəyyən vaxt ərzində provizorun aptek rəhbərliyinə dəvət edilməsini tələb edirdi.

Bununla yanaşı, zəhərli və güclü təsirə malik dərman maddələrinin satışı ciddi nəzarətə götürülürdü. Dərmanların qiymətləri ümumi qaydada Tibbi-Əczaçılıq Şöbəsi ilə «Aptekçilərin Cəmiyyəti» arasında razılaşdırılırdı və ümumi taksa ilə satılırdı. Bu qiymətlərə, zəhmət haqqı da *(taxa laborum)* əlavə edilirdi. Bəzi apteklərdə dərman haqqı artıq alınan təqdirdə, bu məsələlər ciddi surətdə yoxlanılır və burada müxtəlif inzibati cəza növləri tətbiq olunurdu (cərimə, töhmət, xəbərdarlıq və s.). Misal üçün, Tsipkinanın Bakı aptekində dərman haqqının taksadan artıq alması nəticəsində, o dövrdə nəşr olunan «İttihad» qəzetinin 6 iyul 1919-cu il 11 saylı nömrəsində ciddi xəbərdarlıq məzmunlu qısa məqalə çap edilmişdir. Beləliklə, bu məsələdə də hökümətin nəzarəti ciddi və güclü idi.

Bəzi apteklərin nəzdində kimyəvi-bakterioloji kabinetləri *(Химико-Бактериологические Кабинеты)* fəaliyyət göstərərək cürbəcür biokimyəvi, bakterioloji analizlərin aparılması ilə yanaşı, həm də müxtəlif zərdablar və mikrobioloji mənşəli vasitələr hazırlanırdı («Baryatinskaya» - X. Qolberq, Veynblatın apteki və s.)

Fəaliyyət göstərən dövlət aptekindən başqa, Bakı şəhərində bir çox milli mənsubiyyətli cəmiyyətlərin: Bakı Xeyriyyə Cəmiyyəti (*Бакинское Благотворительное Общество*), Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti (*Бакинское Мусульманское Благотворительное Общество*), Bakı Erməni Milli Şurası (*Бакинский Армянский Национальный Совет*), Yəhudi Bakı Milli Şurası (*Еврейский Бакинский Национальный Совет*), Bakı Rus Xeyriyyə Cəmiyyəti (*Бакинское Русское Благотворительное Общество*), «Daşnaqtsütün» partiyasının Mərkəzi Komitəsi (*ЦК партии «Дашнакцютюн»*) apteklərin açılması haqqında Səhiyyə Nazirliyinin Tibbi - Əczaçılıq Şöbəsinə müraciət edərək, məsələnin müsbət həllini arzulayırdılar.

Bu müraciətin nəticəsi kimi, Tibbi-Əczaçılıq Şöbəsi Şurasının 15 iyul 1919-cu il tarixli iclasının 6 №-li protokoluna əsasən, Bakı Rus və Müsəlman Cəmiyyətlərinə, Erməni Milli Şurasına aptek açmağa icazə verilmişdi.

Maraqlıdır ki, Tibbi-Əczaçılıq Şöbəsinin 23 noyabr 1918-ci il tarixli rəsmi müraciətinə cavab olaraq

---

* *Burada və sonradan mötərizədə rus dilində adlar orijinalda, yəni arxiv sənədlərində olduğu kimi verilmişdir – Müəll.*

Bakı şəhəri Bələdiyyəsinin statistik bürosu (*Статистическое Бюро Бакинской Городской Управы*) 22 oktyabr 1917-ci il tarixli siyahıyaalmanın nəticəsi kimi Bakı şəhərinin əhalisinin sayının 230.938 nəfər olduğunu bildirir.

Mövcud olan ərazi - idarəetmə bölgüsünə görə, Cümhuriyyətdə xidmət göstərən aptekləri Bakı və Gəncə quberniyası üzrə təsnif etmişik. Bakı quberniyası üzrə apteklərin əksəriyyəti Bakı şəhərində yerləşmişdi (cədvəl 1).

Fəaliyyət göstərən apteklərdə hazır dərmanların satışı ilə yanaşı, həm də dərman vasitələrinin hazırlanması ilə məşğul olurdular, sanki bir mini – istehsalat təşkil edilmişdi.

Arxiv sənədlərinin araşdırılmasının nəticəsi, apteklərin yoxlanması *(ревизия)* və aptek işçilərinin şəxsi işələrinin *(кондуитные списки)* təhlili göstərir ki, apteklərin ştatında demək olar ki, milli mənsubiyyətli mütəxəssis kadrları yox idi (cədvəl 1, 2).

Dərman vasitələrinin idxal/ixrac məsələlərinə gəldikdə onu qeyd etməliyik ki, o çətin və mürəkkəb dövrdə səhiyyə rəhbərliyinin uzaqgörənliyi sahəsində yerli dərman bazarını təchiz etmək məqsədi ilə, indiki dillə desək, *fiziki şəxslər* (A. Dadaşov, V. Kelənterov, S.S. Gülbekyan, Seyid Cəfər, Parker-Kollor, İ.R.Qrinqaus, Ə. Məmmədov, provizor M.M. Bıkov, doktor D. Urusov) xarici dövlətlərdən dərman vasitələri respublikaya idxal etmək üçün, Tibbi-Əczaçılıq Şöbəsinin təqdimatı əsasında Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin (Səhiyyə Nazirliyinin) ticarət nümayəndələri (*контрагенты правительства (Минздрава) Азербайджанской Демократической Республики*) sayılırdılar.

**Cədvəl 1.** *Bakı quberniyasında fəaliyyət göstərən apteklər*

| № | Aptekin adı | Aptekin sahibi | Aptekin müdiri | Aptekdə işləyən mütəxəssislərin sayı / onlardan azərbaycanlılar |
|---|---|---|---|---|
| 1. | «Baryatinskaya» | provizor İvan Voyniloviç | provizor Xaim (Yefim) Qolberq | 7/- |
| 2. | «Qoqolevskaya» | aptek köməkçisi David Levin | provizor Berson Yankeleviç | 3/- |
| 3. | «Naberejnaya» | provizor Mixail Bıkov | provizor David Asatiani | 2/- |
| 4. | «Krasnovodskaya» | provizor M.A. Çernomordikov | provizor D.İ.Mesxi | 5/- |
| 5. | «Şamaxinskaya» | provizor M.L. Qavşon | aptek köməkçisi D.V. Rıbakov | 2/- |
| 6. | «Böyük Dəniz» | provizor B.M. Rayqorodetskiy | - // - | 7/- |
| 7. | «Vasilevskaya» | provizor Q.Y. Vasilevskiy | - // - | 6/- |
| 8. | K.E. Tsipkinanın arteki (keçmiş Eyxler) | provizor Klara Tsipkina | provizor A.D. Baqrat | 7/- |
| 9. | S.Q. Ketiladze apteki | S.Q. Ketiladze | Provizor A.R. İaşvili | 4/- |
| 10. | «Telefon» | Həkim arvadı Y.Y. Promışlyanskaya | provizor M.A. Qluzman | 5/- |
| 11. | Markarovun Bakı apteki | aptek köməkçisi Miriam Xaim Frenkna | provizor Minas Markarov | 2/- |
| 12. | «Vituşinskinin» apteki | provizor Vituşinskiy | provizor V. Sulava | 3/- |
| 13. | «Ermans və K°» Moskva Səhmdar Cəmiyyətinin apteki («Великокняжеская аптека») | Moskva Səhmdar Cəmiyyəti | provizor Q.M. Berşanskiy provizor A.Rafail Trank | 6/- |
| 14. | Bayıl apteki | əczaçı İ.M. Qrinberq | Q.İ. Brantsburq | 3/- |
| 15. | M. Ferdinandın apteki | provizor M.A. Ferdinand | provizor A.F. Frank | 2/- |

| | | | | |
|---|---|---|---|---|
| 16. | «Qlaz»ın apteki | – | provizor M.A. Veynblat | – |
| 17. | Bakı Neft Sənayeçiləri Qurultayının Sabunçu apteki | – | provizor A. Eliava | – |
| 18. | Pirşağı kənd apteki | provizor M.A. Sakvarelidze* | - // - | 7/- |
| 19. | Binəqədi kənd apteki | - // - | aptek köməkçisi Tezi-Vasilçikov | – |
| 20. | Məştağa kənd apteki | aptek köməkçisi Qriqoriy Konkeviç | aptek köməkçisi Viktoriya Konkeviç | – |
| 21. | Biləcəri kənd apteki | S.M. Axvlediani | Arçil Qriqoliya | – |
| 22. | Mərdəkan kənd apteki | Məmməd Əli oğlu Mustafayev | - // - | – |
| 23. | Balaxanı kənd apteki | Noy Moqilevskiy | - // - | 1/- |
| 24. | Buzovna kənd apteki | Məmməd Əli oğlu Mustafayev | - // - | – |
| 25. | Ramanı kənd apteki | X. Kretinqenin vərəsəsi | Provizor O.M. Qinzburq | 1/- |
| 26. | Qusar kənd apteki | provizor Ojepovskiy (sonra arvadı) | feldşer Popov | 1/- |
| 27. | Xaçmaz kənd apteki | aptek köməkçisi Abram Myasnik | - // - | – |
| 28. | Quba şəhər apteki | – | aptek köməkçisi Semyon Qelbux | – |
| 29. | Göyçay kənd apteki | aptek köməkçisi Karl Reyx | - // - | 1/- |
| 30. | Şamaxı şəhər apteki | Nadejda Sulava | Provizor Vissarion Sulava | 1/- |
| 31. | Kürdəmir kənd apteki | Y.L. Juxovitskiy | aptek köməkçisi R D. Bakunina aptek köməkçisi Aron Rayxlin | – |
| 32. | I Səlyan apteki | İ.Y. Vasilyev provizor Berkotel | aptek köməkçisi A.Xşeyn | 2/- |
| 33. | II Səlyan apteki | tacir,aptek köməkçisi İ.Siqalov və oğlanları | provizor Rayqorodetskiy aptek köməkçisi Ş. Stlunker | 3/- |
| 34. | Hacıqabul apteki | B. Kleyn | aptek köməkçisi Abram Şulman | – |
| 35. | Nikolayev kənd apteki | provizor Pesya Qoz | B. Zummerov | – |
| 36. | I Petropavloskaya (Səbirabad) kənd apteki | Həkim N.A.M. Kamrez | aptek köməkçisi M.S.A. Aubinder | 1/- |
| 37. | Prişib (Göytəpə) kənd apteki | İ. Qorbunov | - // - | – |
| 38. | I Lənkəran apteki | E.O. Ventsel | provizor M. Yaroşinskiy | 2/- |
| 39. | Astara kənd apteki | İran vətəndaşı Məmməd Ağayev | provizor Qotald Lepberq | 1/- |
| 40. | Mixaylov şəhər xəstəxanasının apteki | – | provizor A.Y. İaşvil | 2/- |
| 41. | II Petropavlovskaya (Səbirabad) kənd apteki | Şamaxılı Həmid Hüseynov | aptek köməkçisi Srul Qinqold | – |

** 1940-1944-cü illərdə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlıyyatı Baş Aptekler İdarəsinin rəisi işləmişdir – Müəll.*

**Cədvəl 2.** *Gəncə quberniyasında fəaliyyət göstərən apteklər*

| № | Aptekin adı | Aptekin sahibi | Aptekin müdiri | Aptekdə işləyən mütəxəssislərin sayı / onlardan azərbaycanlılar |
|---|---|---|---|---|
| 1. | **Gəncə** şəhər apteki | Gəncə şəhər Bələdiyyəsi (*Управа*) | provizor A. Qeyboviç | 5/2 |
| 2. | **«Dondukovskaya»** | - // - | provizor Q.V. Balasanov | 4/- |
| 3. | **«Mixaylovskaya»** | - // - | provizorlar Çinçiladzə və Beridzə | 3/- |
| 4. | Gəncə apteki | A. Yankeleviç | provizor Qelbux | 5/3 |
| 5 | **Şuşa** apteki | Murtuza Abdullabəyov | provizor Dionisiy Vatsovskiy | – |
| 6. | **Ağdam** kənd apteki | aptek köməkçisi Qerş Kandel | - // - | – |
| 7. | **Tovuz** kənd apteki | Cannaşia ailəsi | aptek köməkçisi Severian Mimikaşvili | – |
| 8. | **Zaqatala sərbəst** (вольная) apteki | provizor Leon D. Şpilberq | - // - | – |
| 9. | **Tərtər** kənd apteki | A.M. Yankeleviç | - // - | 1/- |
| 10. | **Nuxa** apteki | provizor Nikita Popov | - // - | – |
| 11. | **Georgiyevsk** (Çinarlı) kənd apteki | provizor E.O. Ventsel | | – |
| 12. | **Annino** (Annenfeld-Şəmkir) kənd apteki | provizor İ. Arnold Dauqul | - // - | – |
| 13. | **Hacıkənd** apteki | - // - | – | – |
| 14. | **Karyagin** kənd (Füzuli) apteki | Feldşer Ziyad bəy Şıxməmmədov | aptek köməkçisi David Savelzon | – |
| 15. | **Yevlax** kənd apteki | aptek köməkçisi Podlubnıy-Spivak | - // - | – |
| 16. | **Dilican** | aptek köməkçisi Lev Qutman | - // - | – |

Ölkədə olan aptek mağazalarını gəldikdə isə, bunu qeyd etməliyik ki, onların böyük əksəriyyəti qeyri-mütəxəssis və digər millətlərin nümayəndələrinə məxsus idi, və bunları aşağıda sadaladığımız soyadları təsdiq edir: İ.M. Qaqin, P.F. Zirorov, Z.Y. Polyakov, Y.P. Tsepurit, M.Z. Kazanov, «Parximed» A.Y. Ter-Melitosyans, F.L. Xiter, Ş.A. Frenkin, V.İ. Dubickin, Xaim Qoyxman, «Pomoş» Ş.X. Petrosyans, D.A. Muradov, Q.D. Zaxarenko, Abdulla Dadaşov, Cahangir Muxtarov.

1919-cu il ərzində ölkədə bəzi apteklərin əmtəə dövriyyəsinə nəzər salmağımız, zənnimizcə, tarixi cəhətdən maraqlı olardı (cədvəl 3).

**Cədvəl 3.** *1919-cu il ərzində bəzi apteklərin əmtəə dövriyyəsi*

| Adı | Reseptlərin sayı | Reseptlə satış, *rubl* | Əl satışı, *rubl* | Ümumi məbləğ, *rubl* |
|---|---|---|---|---|
| «Şamaxinskaya» | 15.558 | 91.728 | 146.198 | 237.926 |
| MSC «Ermans və K» | 82.347 | 1.674.919 | 630.503 | 2.305.423 |
| «Nikolayevskaya» | 40.000 | 400.000 | 240.000 | 640.000 |
| «Baryatinskaya» | 21.950 | 198.000 | 94.000 | 292.000 |
| D.Levinin apteki | 18.900 | 209.850 | 110.300 | 320.150 |
| Vituşinskinin apteki | 21.780 | 285.640 | 152.940 | 438.580 |
| «Telefonnaya» | 19.962 | 198.345 | 91.632 | 289.977 |
| Ketiladzenin apteki | 30.920 | 310.400 | 200.250 | 510.650 |
| Çernomordikovanın apteki | 17.821 | 190.250 | 94.885 | 285.135 |
| «Böyük Deniz» | 25.250 | 250.200 | 126.500 | 376.700 |
| Neftsənayeçiləri qurultayı şurasının Qaraşəhər apteki | 3643 | 39.013 | 36.041 | 75.631 |

Qeyd etmek lazımdır ki, yuxarıda gösterdiyimiz melumatlar Azerbaycan Respublikası Dövlet Arxivinde qorunan senedler esasında verilmişdir.

Bununla yanaşı, Azerbaycan Respublikası Tarix Arxivinde saxlanılan senedlerde 1918-ci ile qeder eczaçılıq xidmeti üzre, ölkenin o vaxtkı erazi bölgelerine (Xankendi, Zengezur, Gorus, Ağstafa, Qindarx ve başq.) aid maraqlı melumatları da aşkar etmişik. XIX esrin II yarısından 1918-ci ile qeder Azerbaycanda eczaçılıq xidmetinin durumu haqqında aşkar etdiyimiz bu melumatlar, şübhesiz ki, eczaçılıq tariximiz üçün çox önemli olacaqdır.

**İstifade etdiyimiz arxiv senedleri:**

I. Azerbaycan Respublikası Dövlet Arxivi: fond 792 «Министерство Народного Здравия», siyahı 1, işler: 18, 59, 179, 198, 201-205, 207, 209, 211, 213, 215, 216-218, 223, 225, 227, 231, 234, 235, 237, 239, 240, 243, 247, 248, 250, 251, 256, 259, 260, 261, 262, 268, 269.

II. Azerbaycan Respublikası Dövlet Arxivi: fond 792, 792 «Министерство Народного Здравия», siyahı 2, işler: 10 (8 vereq), 11 (2), 12 (3), 26 (9), 27 (10), 28 (2), 30 (2), 31 (6), 34 (4), 35 (1), 36 (10), 38 (10), 39 (10), 40 (2), 41 (2), 42 (6), 44 (2), 47 (2), 48 (7), 49 (3), 58 (4), 63 (3), 67 (8), 70 (3), 71 (6), 79 (7), 83 (6), 86 (7), 87 (3), 89 (1), 90 (8), 91 (12), 92 (42), 93 (4), 97 (10), 99 (5), 100 (2), 101 (5)-136 (2).

**Ədebiyyat** *

1. Hafiz M. Əliyev, Rafail V. Sadıqov, Azerbaycan Xalq Cümhuriyyeti (1918-1920-ci iller) hökümetinin eczaçılıq sahesinde fealiyyeti haqqında. - Azerbaycan Əczaçılıq Jurnalı. – 2004. – Cild IV, № 1. – 23-28. (2018, №1, s.5-11).

2. Hafiz M. Əliyev, Rafail V. Sadıqov, Azerbaycan Xalq Cümhuriyyeti (1918-1920-Ci iller) dövründe eczaçılıq. – «Azerbaycanda tibb elminin tarixi problemleri» I Respublika elmi konfransının materialları. – Bakı.–1-2 fevral 2005. – 57-62.

**О СОСТОЯНИИ ФАРМАЦЕВТИЧЕСКОЙ СЛУЖБЫ В ПЕРИОД ПРАВЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ (1918-1920 гг.)**

**Афиз М. Алиев, Рафаил В. Садыгов**

Впервые, на основе выявления и анализа многочисленных архивных материалов, освещается состояние фармацевтической службы в период правления Азербайджанской Демократической Республики (1918-1920 гг.).

**ABOUT THE CONDITION OF PHARMACEUTICAL SERVICE DURING BOARD OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC (1918-1920)**

**Hafiz M. Aliyev, Rafail V. Sadigov**

For the first time on the basis of revealing and the analysis of numerous archival materials the condition of pharmaceutical service during board of the Azerbaijan Democratic Republic (1918-1920) is shined.

УДК: 615.1(479.24) (09) "1918-1920"

© Hafiz M.Əliyev, 2004
© Rafail V.Sadıqov, 2004

*Azərbaycan Xalq Cümhuriyyəti ilində jurnalın birinci sayındakı məqalədə olduğu kimi, burada da xırda texniki düzəlişlər aparılmışdır. *Red.*